## РОЛЬ ТВОРЧЕСТВА К.САФАРАЛИЕВОЙ В РАЗВИТИИ АЗЕРБАЙДЖАНСКОЙ ФОРТЕПИАННОЙ ШКОЛЫ

***Гаджиева Мехрибан Шовкет кызы***

***Резюме***

Пианист-педагог К.Сафаралиева (1907-1985) была одним из выдающихся музыкантов, заложивших основы фортепианного искусства в Азербайджане.

К. Сафаралиева, составитель ряда научно-методических пособий, сборника для фортепиано, автор статей о музыке, сыграла большую роль в развитии музыкального образования в Азербайджане.

В статье подробно рассматривается возникновение и развитие Азербайджанской фортепианной культуры, влияние творчества видной представительницы этой культуры Койкаб Сафаралиевой на музыкальное образование.

## THE ROLE OF KOYKEB SAFARALIYEVA'S CREATIVITY IN THE DEVELOPMENT OF THE AZERBAIJANI PIANO SCHOOL

***Hajiyeva Mehriban Shovkat***

***Summary***

Prominent pianist-pedagogue Koykab Safaraliyeva was one of the prominent musicians who laid the foundation of the art of piano performance in Azerbaijan.

K. Safaraliyeva, the compiler of a number of scientific-methodical textbooks, the compendium for the piano, and the author of articles about music, played a major role in the development of music education in Azerbaijan.

The article examines in detail the emergence and development of Azerbaijani piano culture, the impact of the work of Koykab Safaraliyeva, a prominent representative of this culture, on music education.

***Rəyçi: baş müəllim Haqverdiyeva N.***
***GDU-nun "Musiqi fənləri" kafedrasının 26 sentyabr 2022-ci il tarixli içlasın02 saylı protokolu***
***Daxil olma tarixi 12 oktyabr 2022-ci il***

**UOT:781.**

## KONSERTMEYSTER BACARIQLARININ MAHİYYƏTİ VƏ ƏHƏMiYYƏTİ

***Haqverdiyeva Nərgiz Əli qızı***
***Gəncə Dövlət Universiteti***
***nargizhaqverdiyeva.@gmail.com***

**Xülasə***: Konsertmeyster sənəti musiqi təhsilinin və ifaçılığının mühüm və ayrılmaz hissəsidir. Konsertmeysterin əsas məqsədi musiqi ifasının gözəlliyini və emosionallığını dinləyicilərə daha dolğun şəkildə çatdirmaqdan ibarətdir.*

*Məqalədə konsertmeyster sənətinin inkişaf mərhələləri və əsas xüsusiyyətləri təhlil edilmiş, konsertmeyster bacarıqlarının mahiyyəti, əhəmiyyəti və onların istifadə sahələri öyrənilmişdir. Konsertmeyster peşəsi pianoçuların peşəkar fəaliyyətində layiqincə məhəbbət və rəğbət qazanmışdır.*

**Açar sözlər:** konsertmeyster, müşayiətçi, ustalıq, pianoçu, musiqi, baçarıqlar
**Ключевые слова:** концертмейстер, аккомпаниатор, мастерство, пианист, музыка, навыки
**Key words:** concertmaster, accompanist, professionalism, pianist, music, skills

Müasir ifaçılıq sənətini pianoçu-müşayiətçinin iştirakı olmadan təsəvvür etmək mümkün deyil. Konsertmeyster peşəsi pianoçular arasında ən geniş yayılmış peşədir. Konsertmeyster sənəti müxtəlif ifaçılıq (ansambl və solo, vokal və instrumental, xoreoqrafiya, kamera və opera) janrları ilə sıx bağlı olduğu üçün, əvəzolunmazdır və çox əhəmiyyətlidir . Təsadüfü deyil ki, bütün ixtisaslar üzrə tədris prosesi, konsert və musiqi müsabiqələri, opera və xoreoqrafik tamaşaları konsertmeysterlə birgə iş prosesi üzərində qurulmuşdur.

Qeyd edək ki, "Konsertmeyster" və "Müşayiətçi" (akkompaniator) terminləri eyni deyil, baxmayaraq ki, təcrübədə, elmi-metodik ədəbiyyatda biz bu anlayışlarin sinonim kimi istifadə olunmasına rast gəlirik. "Müşayiətçi" (akkompaniator) (fransızca "akkompagner"- müşayiət etmək deməkdir) səhnədə müşayiət partiyasını ifa edən musiqiçidir. Pianoçu-müşayiətçının fəaliyyəti adətən konsert fəaliyyətini nəzərdə tutur. Akkompaniatorun əsas məqsədi musiqi əsərlərdə solistə harmonik, ritmik dəstəyin verilməsindən ibarətdir .

Konsertmeyster anlayışı daha genişdir. "Konsertmeyster" (almanca konzertmeister) sözü iki sözün birləşməsindən - konzert - "konsert" və meister- "usta" sözlərindən yaranıb. XVII əsrdə orkestrdə hər hansı alətlər qrupunun rəhbəri olan, musiqiçiləri öz ardınca aparan, onlara ifaçılıq üsullarını öyrədən ifaçıya (məsələn, birinci skripka) konsertmeyster deyilir. Vokalçıları, müğənniləri və müxtəlif alətlərdə solo ifaçılarının məşq prosesində yaxından iştirak edən, onları müşayiət edən, konsert və müsabiqələrdə solistlərlə birgə çıxış edən pianoçuları da konsertmeyster adlandırırlar [9]. Bununla yanaşı qeyd etmək lazımdır ki, peşəkar konsertmeyster təkcə musiqiçi kimi deyil, həm də təşkilatçı, müəllim və psixoloq kimi çıxış etməli və onun bu keyfiyyətləri tədris, konsert və müsabiqələr şəraitində solo ifaçıya dəstək və kömək etməlidir.

Konsertmeyster peşəsinin tarixinə nəzər saldıqda, bu sənətin mərhələli şəkildə formalaşması və inkişafı özünü aydın göstərir. Qədim dövrlərdən başlayaraq insanlar müxtəlif zərb və nəfəs alətlərdə melodiyanı, mahnıları, rəqsləri ən sadə (melodiyanın bir oktava aşağı və ya yuxarı təkrari) üsullarla müşayiət edirdilər. Qədim yunanlar müşayiət sənətini daha yüksək səviyyəyə qaldırmışlar. O dövrdə musiqi sənətinin ən mühüm hissəsi vokal musiqi sayılırdı. Qeyd etməliyik ki, qədim yunanlar melodiyanı poetik misralarının metrinə uyğun olaraq tərtib etməyi başlamışdılar.

Konsertmeyster sənətinin növbəti inkişaf mərhələsi-improvizasiya şəklində müşayiətdir. Pedaqoq - konsertmeyster Yuliya Borisovna Akbari "Müşayiət sənətinin tarixinə dair" ("К истории искусства аккомпанемента") dərsliyində yazır: "XIV əsrin musiqisində melodiya unison (yaxud oktava) üsulu ilə müşayiət olunurdu. Bir qayda olaraq müşayiət hansısa musiqi alətində improvizasiya üsulu ilə ifa olunurdu və melodiyadan fərqli səslənməli idi"[3, s. 19].

Barokko dövründə müxtəlif klavişli alətlərin (virdjinal, xarpsixord, klavesin) yaranması konsertmeyster sənətinin tarixində böyük rol oynamışdır. Bu dövrdən başlayaraq, ifaçının əsas məqsədi - müşayiət olmuşdur. Lakin o, hələ ayrıca bir fəaliyyət növü deyil, pianoçu-ifaçıların bacarıqlarının zəruri komponenti kimi qəbul olunurdu. XVII-XVIII əsrlərdə ifaçılıq sənətinin əsasını improvizasiya təşkil edir və intensiv sürətdə inkişaf edir.

Görkəmli pianoçu-virtuoz Fransua Kuperen (1668-1733) "Klavesin ifa sənəti" ("Искусство игры на клавесине", (1717)) traktatında "Müşayiət qaydaları" adlanan əlavədə müşayiət sənətinə dair bəzi tövsiyələr verir. O, yazır: "Musiqiçi üçün yaxşı müşayiətçi

olmaqdan cəlbediçi heç nə yoxdur" [4, s. 71]. Müşayiət sahəsində metodik ədəbiyyatın ilk nümunələrindən biri Karl Filip Emanuil Baxın (1714-1788) "Klavir ifaçılığının əsl sənətinin təcrübəsi" ("Опыт истинного искусства клавирной игры",(1753)) adlı traktatı sayıla bilər. K.F.E.Bax yazır: "Solist peşəkar olmasa da, yaxşı müşayiətçi onun uğur qazanmasına kömək edir. ...Bir sözlə, yaxşı müşayiət etmək üçün əsl musiqi ruhu, yaxşı baş və xoş niyyət lazımdır"[5, s. 56].

Konsertmeyster sənətinin inkişafının növbəti mərhələsi fortepianonun yaranması dövrü ilə bağlıdır. Bu dövrdə ifaçılar fortepiano alətini ən yaxşı müşayiət aləti hesab edirdilər. Yozef Haydn (1732-1809), Volfqan Amadey Motsart (1756-1791) və Lyudviq Van Bethovenin (1770-1827) əsərləri (sonatalar, divertismentlər, duetlər, triolar və s.) Avropa kamera-instrumental musiqisinin dəbdə olan əsərlərinə çevrilmişdir. Qeyd etmək lazımdır ki, bu dövrdən başlayaraq bəstəkarlar öz əsərlərinə (romans, mahnı, kamera- instrumental) müşayiət mətnini notla yazmağa başlayırlar. Tanınmış pedaqoq-konsertmeyster İrina Aleksandrovna Ravçeyeva "Профессия концертмейстера: к истокам" məqaləsində yazır: "L.V.Bethovenin yaradıcılığında müşayiətçinin obrazı və onun əsas xüsusiyyətləri formalaşmış və bu günə qədər qorunub saxlanılmışdır" [7, s. 412].

XVIII əsrin sonu XIX əsrin əvvələrində romantizm cərəyanı dövründə müşayiət partiyası yüksək bədii səviyyəyə catdırılmışdır. Frans Şubertin (1797-1828), Robert Şumanin(1810-1856), Edvard Qriqin (1843-1907), Pyotr Çaykovskinin (1840-1893), Sergey Raxmaninovun (1873-1943) romanslarında, mahnılarında və instrumental əsərlərində müşayiət partiyası melodiya ilə birlikdə vahid bir musiqi obrazı yaradır. Bu bəstəkarların əsərlərində fortepiano partiyası bədii obrazın bir hissəsi kimi çıxış edir və konsertmeyster musiqi əsərinin psixoloji obrazının açılmasında aparıcı rol oynayır. Müşayiət partiyalarının materialı inkişaf etdirilərək, kulminasiyaya çatdırılır, musiqi dramaturgiyasının hərəkətveriçı qüvvəsinə çevrilir.

XIX əsrin sonu XX əsərin əvvəllərində konsertmeyster sənəti ayrıca bir peşə kimi görkəmli musiqiçiləri, solo ifaçıları cəlb etməyə başladı. Təsadüfi deyil ki, bütün böyük pianoçuların yaradıcılıq taleyi konsertmeyster sənəti ilə bağlıdır. Anton Rubinşteyn (1829-1894), Konstantin İqumnov (1873-1948), Serqey Raxmaninov (1873-1943) Svyataslav Rixter (1915-1997) yaradıcılığını buna nümunə kimi, göstərmək olar. Tədqiqatçı Aleksandr Naumoviç Yudin qeyd etdiyi kimi, "S.Raxmaninovun yaradıcı obrazının unikallıgı ondadır ki, o, bəlkə də musiqi tarixində böyük bəstəkarın, böyük pianoçu-solistin və böyük müşayiətçinin bir musiqiçidə birləşməsinin yeganə nümunəsidir" [7, s.10]. Görkəmli musiqi tənqidçisi Boris Asafyev (1884-1949) S.Raxmaninovu "öz romanslarının ən yaxşı müşayiətçisi" və hətta "müşayiətçı-tərcüməçi" adlandırırdı [6, s.24]. Bununla yanaşı, XX əsrdə konsertmeyster sənətinə aid xüsusi ədəbiyyat yaranır. V.Hikkinin "Fortepiano müşayiəti" (1925, London), R.Hartmanın "Müşayiətin işi" (1934, Berlin), C.Murun "Mugənninin işi"(1953, London) və s. əsərləri qeyd etmək olar.

Rusiyada konsertmeyster sənətini Qərbi Avropa elmi əsərləri əsasında formalaşır və inkişaf edir. Bu əsasən Rusiyada vokal musiqisinin inkişafı ilə bağlıdır. Rus konsertmeyster sənətinin əsasını Vasiliy Paşkeviş (1742-1797), Dmitri Bortnyanski (1751-1825), Evstiqney Fomin (1761-1800) kimi musiqiçilər qoymuşlar. Bir çox rus bəstəkarları Aleksey Verstovski (1799-1862), Aleksandr Barlamov (1801-1848), Aleksandr Darqomıjski (1813-1869) yüksək səviyyəli, professional müşayiətçi olmuşlar. Tanınmış pedaqoq A.N.Yudin "Консертмейстерская практика русских композиторов XIX- начала XX вв." metodik vəsaitində yazır: "Mixayil Qlinka musiqi salonlarında müşayiətçi bacarıqlarını təkmilləşdirirdi. Bəstəkar özü partiyaları gələcək ifaçıları ilə hazırlayır, təkçə musiqi mətninə

deyil, həm də səsin quruluşuna, ifadəsinə fikir verdi”[7, s. 9]. 1867-ci ildə A.Rubinşteyn Sankt-Peterburq konservatoriyasında ifaçılıq vərdişlərini və başarıqlarını təkmilləşdirmək üçün xüsusi siniflər açmağı təklif edir........

Göründüyü kimi, konsertmeyster peşəsi universal peşədir və heç də bütün pianoçular üçün səciyyəvi deyildir. Təəssüf ki, bu peşənin əhəmiyyətini və mürəkkəbliyini bir çox musiqiçilər dərk etmir və konsertmeysterlərə təvazökarlıqla yanaşaraq, fikir bildirirlər ki, “solistin kölgəsində” ifa etmək böyük bacarıq tələb etmir. Lakin bu səhv fikirdir. Solo və müşayiətçi fəaliyyətinin xüsusiyyətləri fərqli olsa da, bunlar bir-biri ilə çox əlaqədardır. Konsertmeyster ustalığı pianoçudan yüksək musiqi - bədii mədəniyyət, fortepiano ifaçılığının əsas prinsiplərini və müşayiətçi üçün zəruri olan xüsusi, spesifik vərdiş və bacarıqları tələb edir. Konsertmeyster zəngin musiqi dünyagörüşünə, ansamblda ifa etmək, dinləmək, sərbəst üzdən (notdan) ifa və transpozisiya etmək bacarıqlarına malik olmalıdır. Bununla yanaşı konsertmeyster nəzəri (harmoniya, polifoniya, musiqi əsərlərin təhlili) və musiqi tarixi, müxtəlif üsluba və janrlara aid olan vokal, xor, instrumental, həmçinin opera və simfonik musiqi əsərlərini bilməlidir

Hər bir solistin, musiqi alətinin (skripka, fleyta, tar və s.) orijinallığı konsertmeysterin iş prosesinə böyük təsir göstərir. Müxtəlif üsluba aid ariya və reçitativ, vokal və ya alətlər ansamblının müşayiət partiyaları konsertmeysterdən ifa zamanı müxtəlif “çalarlar” və bacarıqlar tələb edirdi. Konsertmeyster ifa zamanı səs balansını pozmadan solo alətinin tembr-dinamik koloritini fortepiano müşayiət partiyası ilə əlaqələndirməyi bacarmalıdır. Bu baxımdan daim dəyişən şərtlər pianoçu - konsertmeysterdən solistin peşəkar hazırlığının, fərdi xüsusiyyətlərinin bilməyini və onlara tez uyğunlaşmağını tələb edir. Odur ki, xor və solistin, teatr və kamera musiqisinin uğurlu ifası konsertmeysterin mükəmməl bacarığından asılıdır.

Konsertmeysterin işi yalnız fortepianoda və ya başqa alətdə sadə müşayiətlə məhdudlaşmır. Konsertmeysterin peşə keyfiyyətləri daha genişdir və özündə bəzi insani keyfiyyətləri də birləşdirir. Belə ki, konsertmeyster yaxşı sinir sisteminə malik olmalı, özünə nəzarəti itirməməli, istənilən “sürprizlərə” tez reaksiya verməli və konsert zamanı ”fövqəladə” vəziyyətinin düzəltməyin yollarını bacarmalıdır. Mobillik, sürət, aktivlik, rasionallıq, analitik təfəkkür - bu keyfiyyətlər konsertmeysterin peşəkar fəaliyyəti üçün çox vacibdir və zəruridir, çünki o, bəzən məşq etmədən ifa etmək məcburiyyətində qalır.

Elmi ədəbiyyatın təhlili göstərir ki, professional konsertmeyster peşəsinə yiyələnmək üçün pianoçular ciddi və uzunmüddətli hazırlanması, müşayiətçi üçün zəruri olan keyfiyyətlərin tədricən toplanılması vacibdir. XX əsrin əvvəllərində tədris proqramlarına yeni fənn-“Konsertmeyster sinfi” daxil edilmişdir. 1930-cu illərin əvvəllərində isə təhsil müəssisələrində konsertmeyster bir vəzifə kimi tətbiq olundu. Hal - hazırda ali və orta təhsil pillələrində pianoçulara “Konsertmeyster sinfi”, ”Fortepiano ansamblı”, “Kamera ansamblı” fənləri əsas fənn kimi tədris olunur. Nəticədə konsertmeysterlərin məqsədyönlü hazırlanması həyata keçirilir.

XXI əsrdə konsertmeyster peşəsi musiqi ifaçılığının və pedaqogikanın ayrılmaz hissəsinə çevrilmişdir. Təəssüflə etməliyik ki, Uşaq Musiqi Məktəblərində təhsilin ilkin mərhələlərində belə, ansambl ifaçılığının əsaslarına, o cümlədən konsertmeyster sənətinə az diqqət yetirilir. Ona görə də, praktiki ansambl ifaçılıq bacarıqlarının olmaması gənc ifaçıları peşəkar kimi formalaşmasına və inkişafına mənfi təsir göstərir.

Təqdirə layiq haldır ki, əməkdaşı olduğum Gəncə Dövlət Universitetinin “Musiqi fənləri” kafedrasında Pedaqoji fakültədə “Konsertmeyster sinfi və ansambl” fənni peşə hazırlığı blokuna daxildir və “Musiqi müəllimliyi” ixtisası üzrə təhsil alan tələbələrə uğurla

tədris olunur. Pedaqoji təcrübə göstərir ki, bu fənn "Musiqi müəllimliyi" ixtisası kadr hazırlığında olduqca vacibdir və tələbələr bu fənnə böyük maraq göstərir.

Beləliklə, biz konsertmeyster yaradıcılığının vacibliyini və mürəkkəbliyini, qeyri-adi çoxşaxəliliyini bir daha vurğulaya bilərik. Konsertmeyster hər zaman yadda saxlamalıdır ki, o, peşəkar pianoçu, ifaçı, müşayiətçi, müəllim, solisti ruhlandıran, ona dəstək verən yüksək səviyyəli musiqiçidir. Qeyd etmək lazımdır ki, konsertmeyster fəaliyyətinin uğurlu olması üçün, zəruri olan vərdiş və bacarıqlarının formalaşması və inkişafı mühüm əhəmiyyət daşıyır. Düşüncənin çevikliyi, müxtəlif musiqi sahələrində biliklərin dərindən mənimsəmək bacarığı, özünün və solist partiyalarının özəlliklərindən geniş məlumatlılığı – bütün bunlar konsertmeysterə mövcud musiqi materialının ən yüksək səviyyədə ifa etməyə köməklik edir. Konsertmeyster solist üçün ilham mənbəyi olmalıdır. Müasir texnologiyaların yayılması ilə bir çox ifaçılar hazır səsyazma (fonoqramm) ilə çıxış etməyə üstünlük verirlər. Ancaq, bu yenilik "canlı" müşayiətin unikal keyfiyyətlərini, konsertmeyster peşəsinin əhəmiyyətini azaltmır, əksinə onu ən çox tələb olunan peşələrdən birinə çevirir. Odur ki, konsertmeyster fəaliyyəti insanlarda yaradıcı təxəyyülü oyatmaq qabiliyyətinə malikdir və bu funksiyada onu heç nə ilə əvəz etmək mümkün deyil.

### ***Ədəbiyyat***

1. Dadaşova M.R. "Musiqi müəlliminin hazırlığının metodikası". Dərs vəsaiti, Bakı, 2010, 256 s.
2. Dadaşova M.R. "Musiqi müəlliminin pedaqoji hazırlığında fərdi məşğələlər". Dərs vəsaiti, Bakı, 2016, ADPU, 55 s.
3. Qurbanəliyeva S.F. "Şəxsiyyət və musiqi". Bakı, Adiloğlu, 2010,160 s.

**Rus dilində:**

4. Акбари Ю.Б. "К истории искусства аккомпанемента". Учебное пособие, Владимир: Изд-во ВлГУ, 2012, 116 стр.
5. Куперен Ф."Искусство игры на клавесине", Москва, Музыка, 1973, 98 стр.
6. Бах К.Е.Э. "Опыт истинного искусства клавирной игры". Санкт- Петербург, Издательский дом EARLYMUSIC, 2005, 102 стр.
7. Бабюк В.Л. "Становление концертмейстерской деятельности в России XVII-XX веков". Магнитагорск, 2003, 184 стр.
8. Равчеева Н.А. "Профессия концертмейстера: к истокам". // Мир, наука, образование Санкт-Петербург, 2013, №6, 417 стр.
9. Юдин А.И. "Консертмейстерская практика русских композиторов XIX- начала XX вв". Санкт- Петербург, 2010, 28 стр.

**Saytoqrafiya**

10. www. konservatoriy.az.
11. www. musiqi-dünyası.az.

## ЗНАЧЕНИЕ И СУТЬ КОНЦЕРТМЕЙСТЕРСКИХ НАВЫКОВ

***Хагвердиева Наргиз Али кызы***

***Резюме***

Концертмейстерское искусство является важной и неотъемлемой частью системы музыкального образования и исполнительства. Среди пианистов профессия концертмейстера является самой распространенной формой деятельности. Главная цель

концертмейстера – донести до слушателей красоту и эмоциональность музыкального исполнения.

В данной статье проанализированы исторические этапы и основные особенности формирования и развития концертмейстерского мастерства, изучены суть и значение навыков и их использование в концертмейстерской практике. Профессия концертмейстера заслуженно завоевала широкую любовь и признание в профессиональной деятельности пианистов.

**THE ESSENCE AND IMPORTANCE OF CONCERTMASTERS' SKILLS**

***Haqverdiyeva Nargiz Ali***

***Summary***

The art of accompaniment plays an important role in the system of music education. Among the professional pianists the profession of accompanist is considered one of the main and important. The main goal of the concertmaster is to convey to the audience the beauty and emotionality of music performance.

The article analyzes the stages, essence, importance and main features of the development of accompanist skills, studied the areas of use of accompanist practice. The profession of an accompanist deservedly won wide love and recognition in the professional activity of pianists.

***Rəyçi: baş müəlllim Hacıyeva M.***

***GDU-nun "Musiqi fənləri" kafedrasının 26 sentyabr 2022-ci il tarixli içlasın 02 saylı protokolu***

***Daxil olma tarixi 12 oktyabr 2022-ci il***

**UOT:78.**

## QARA QARAYEVİN FORTEOİANO YARADICILIĞINDA UŞAQ MUSİQİSİNİN YERİ

***Məmmədova Qəsirə Tofiq qızı***
***Gəncə Dövlət Universiteti***
***qasira.mammedova@gmail.com***

**Xülasə:** *Azərbaycan bəstəkarlarının fortepiano üçün uşaq musiqisi musiqi tarixinin inkişafında mühüm yer tutur. Uşaq fortepiano musiqisinin inkişafında Azərbaycanı dünyaya tanıdan milli bəstəkarlıq məktəbinin görkəmli nümayəndələrindən biri olan Qara Qarayevin xüsusi yeri var. Bəstəkarın uşaq fortepiano musiqisi onun yaradıcılığında aparıcı janrlardan biridir.*

*Məqalədə Q.Qarayevin uşaq fortepiano üçün "6 uşaq pyesi","6 orta çətinlikli pyes" nəzərdən kecirilmiş və səciyyəvi xüsusiyyətləri təhlil edilmişdir. Pyeslərdə məqam-intonasiya xüsusiyyətlərinin təhlili verilmiş, onların rəngarəng obrazlı olması və məzmunun açılmasında musiqi dilinin ifadə vasitələri ilə necə xarakterizə edilməsi göstərilmişdir.*

**Açar sözlər:** Qara Qarayev, bəstəkar, fortepiano musiqisi, uşaq musiqisi , fortepiano pyesləri